**Yaşar bir səda ruhumda....**

**Hamlet İsaxanlı poeziyasının gücü**

Ədəbiyyat insan üçün bilik mənbəyidir: İnsanın daxili aləmini daha əhatəli verməsi ilə fərqlənir. İnsanda bədii zövq formalaşanda, emosionla qavrama olanda həyatın gözəlliklərini dərindən duyur.

Ədəbiyyat (şeir) və tərbiyə- bu iki məfhumu günəş və işıq: həyat və fəaliyyət kimi bir-birindən ayrı təsəvvür etmək olmaz. Bütün insanı keyfiyyətlərin təşəkkül tapmasında müstəsna rol oynayan emosional həssaslığın tərbiyə olunmasında ədəbiyyatın rolu əvəzsizdir.

Bədii yaradıcılıqda obyektiv zövqə malik olan sənətkarların əsərləri tərbiyənin işığı olublar. Bu işığın içərisində humanist şair Hamlet İsaxanlının poeziyası özünəməxsus yer tutur. H. İsaxanlı poeziyası gəncliyin tərbiyə işində - ideyaca zənginləşməsində, əxlaqi cəhətdən tərbiyə olunmasında, sağlam düşüncə və mübarizə ruhu yaratmasında, mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynayır.

Yeniyetməlik ideyaların formalaşması dövrüdür. Hər bir yeniyetmənin ağlına və qəlbinə həyatları nümünə ola biləcək adamların obrazlarının keçməsi çox vacibdir. Humanist poeziya ideya düşməninə (şərə) qarşı barışmazlıq hissi vrdır- bu mümkün mənəvi vəziyyətdir. Gənclərin xeyrin təntənəsinə, ədalətə, bütün paklığa və düzlüyə inamı xeyr və şərin real ifadəçi-lərinə onlann necə yanaşmaların-dan aslıdır. H.İsaxanlı şeirlərinin bu yanaşmanı (ədalətə, düzlüyə məhəbbət hissi) aşılamaqda böyük rolu vardır.

**Dərinə nüfuz ett düşünmə üzdən,**

**Vaz keçmə gecədən,**

**bezmə gündüzdən.**

**Ədalət nur saçar ömür yoluna,**

**Doğru sсçə bilson əyrlnl,**

**düzəldən**

**İçimdə yaşar bir səda –**

**şərlə çarpışan xeyirəm;**

**Sözümüzün keşiyində dura bilsək,**

**Hədəfləri bircə-bircə vura bilsək,**

**Gələcəyi gözümüzdə qura bilsək,**

**Yaşamağa nə var kiL**

**Dörd tərəfdə ağ yalanlar**

**görünməsə,**

**Xain quldur saxta cildə**

**bürünməsə,**

**Yattaq adam ayaq atda sürünməsə,**

**Yaşamağa nə var ki!...**

Şeir gənclərə dəyərli, gözəl hisslər aşılayır - ədalət, düzgünlük və nəcib ideyalar uğrunda mübari-zəyə ruhlandmr. İdeya mərdliyi, şərlə barışmazlıq isə çətinliklərin aradan qaldırılmasında əyilməzliyə gətirir. Şeir gənclərdə insanı sev-mək, insanı alçaldan hər şeyə nifrət etmək hissi yaradır.

**Bəd əməilər ayaq açıb yürüməsə,**

**Tale bizi fəlakətə sürüməsə,**

**Həssas ürək qəmə batıb çürüməsə,**

**Yaşamağa nə var ki!..**

Başqa bir şeirində isə şair yazır:

**Söz qoşmadım yaxşı-yaman,**

**Tam əksinə, mən hər zaman**

**Gözümə dəyən hamını**

**Gördüm insani biçimdə**

Gənc olan da ətraf aləmə həssaslığının tərbiyəsində emosional yaddaş böyük rol oynayır. Buna görə də ətraf aləmə emosional münasibətin tez ötüb keçməməsini, qəlbdə isə öz izini saxlaması, təmiz fikirlər oyatması üçün gənclik illərində insanın emosional aləminin parlaq hisslərlə mütaliə vasitəsilə zənginləşdirməyə çalışmalıyıq.

Yeniyetmələr üçün gözəllik ədalətdədir. Ədalət daxili mənəvi aləmi doğurur. İnsan o zaman xeyirxah olur ki, pisliyə qarşı mübarizə aparır. Gənc qəlbi pislikdən çəkindirmək üçün ora xeyirxahlıq hissi daxil etmək lazımdır. Burada H.İsaxanlı poeziyasının rolu əvəzsizdir.

**Yoxdur bərabərlik qoca dünyada,**

**Kimi at oynadir, kimi piyada.**

**Sevgi üstələsə kini, nifrəti,**

**Əzilməzdi bəşər həddən ziyada.**

**Uzaq olsun ya yaxın,**

**qohum olsun ya tanış,**

**Sevinc bəxş et, könül al,**

**qəm paylamaq hünərmi?**

Şeir gənc ürəkdə nəcib ideyalar yaradır. Xoşniyyət olmaq, xeyirli işlərlə məşğul olmaq kimi nəcib sifətlər aşılayır. Gənc ürək zəngin ideya həyatı ilə yaşamalıdır. H.İsaxanlı poeziyasının gücü ondadır ki, hər ürəkdə əsil xeyirxahlığın pisliyə qarşı mübarizə dünyasını yarada bilir, pisliklə barışmazlıq çətinliklərin aradan qaldırılmasında əyilməzlik, əqidəyə sədaqət hissi aşılayır.

**Gözəllik seyrinə dalmaq üçündür,**

**Məhəbbət ürəkdə qalmaq üçündür.**

**Həyat hərəkətdir, gəlib - gedəndir,**

**Əməl həyatdan bac almaq**

**üçündür.**

Həyatın gözəlliyinə heyranlıq, əməllərin səni gözəl insan edə bilər. Ürəkdə isə paxıllıq, riyakarlıq yox, məhəbbət olmalıdır. Gənc qəlbi ruhlandıran, gözəl əməllərə səsləyən sətirlər:

**Ümid xəfif olsa belə,**

**könüllərə şəfəq saçar,**

**Xoş əməllər bar gətirər,**

**xoş niyyətlər çiçək açar.**

**İnsanlara qanad verən sevgi**

**adlı möcüzə var,**

**Nəhayətsiz eşq, ehtiras,**

**duyğu çələngidi dünya.**

Ümid insanın təsəllisidir. Gənclik gələcəyə xoş ümidlə baxmalıdır. Şeiri oxuyan hər kəsin öz daxili dünyasında "niyyətin səni yaxşı, sevincli yaşamağa aparacaqdır" fikri yaranır.

İnsanlara qanad verən sevgi adlı möcüzə var - bu sətrin gənc ürəkdə hansı xoş izlər salacağını insanın daxili aləminə gətirdiyi emosionallıqdan duymaq olar.

İsaxanlı poezıyasi gözəl və sadədir. Gənc nəsil isə gözəlliyi və sadəliyi tez duyub qavrayır. H.İsaxanlı poeziyasi sadə olduğu üçün gənclər tərəfindən tez dərk edilir. Tərbiyənin təsiri isə dərketmə ilə bağlıdır. Şair özü gözəllikləri sevgi ilə duyduğu üçündür ki, onun poeziyasi sevgi ilə duyulur. O poeziyaya baxanda orada həqiqi gözəllikləri duyuruq. Yeniyetmənin gözəlliyi poeziya vasitəsi ilə duyması xüsusi əhəmiyyət kəsb edir. Əgər tərbiyənin qüdrətli qüvvəsinə inanılırsa bu inamın başlıca mənbələrindən biri poeziyanin gözəlliyi, insanın müdrik sözünün yüz illər ərzində cilalanmış dərinliyidir. Söz şairin qəlbində yaşayırsa təsiri böyük olur.

Şairin "Möcüzə gecə" şeiri sözlər vasitəsilə gözümüzün önündə gecənin ecazkar tablosunu yaradır. Ayı da, ulduzları da emosional hisslərlə duyuruq, xəyalən bu möhtəşəm gözəlliyin içində yaşayırıq

**Nə gözəldir gecələr...**

**Göylər gözünü açır,**

**Ayın ayna camalı**

**Qəlbimə şölə saçır.**

**Ulduzlar hey sayrışır**

**Nurani kəhkəşanda.**

**Zülmət əriyir, qaçır,**

**Aydınlığa qarışır.**

**Can cismimlə barışır,**

**Məhəbbətdən alışır.**

İnsan fikhnin ilk qığılcımı gözəllik aləminin kəşfinə gedən yolda ilk pillə olmuşdur. İnsan axşam şəfəqlərinin və mavi səmada süzən buludların gözəlliyini gördüyü, bülbüllərin nəğməsini eşitdiyi və nəhayetsiz gözəlliyə heyran olduğu zaman insan olmuşdur. O vaxtdan bəri fikir ve gözəllik insanı yüksəldərək və böyüdərək yanaşı addımlayır.

H.İsaxanlı poeziyasının ilk qığılcımı da gözəlliyə heyranlıqdan, uşaqkən gözəlliyə olan vurğunluqdan başlayıbdır.

**Bir uşaqdım, vurulmuşdum**

**Asta yağan yağışlara.**

**Həsrətli bir sevgim vardı**

**Dağ başına düşən qara.**

**Bir uşaqdım vurulmuşdum**

**Göydə gəzən buludlara.**

Ətraf aləmin gözəlliyini görə bilmə və ondan təsirlənmə, varlığın sevincinin, həyatın gözəlliyinin dərk edilməsi - H.İsaxanlı poeziyasinin sevilməsi və gənclikdə varlığa, həyata qarşı məhəbbət hissi oyatmasının səbəbi.

Poetik söz özünün incə çalarları ilə yeniyetmələrdə ən işıqlı və gözəl şeyə, bəşəriyyətin ən qiymətli sərvətlərinə qoşulmağa sevinc hissi yaradır. Hiss etməyi öyrətmək - yalnız hisslərin dilinə müraciət etməklə olar, bu dil isə poetik sözdən başlanır. Gəlin H.İsaxanlının "Susma, danış, ay ana" şeirinə müraciət edək. Bu əsərdə həyatı yaradana -anaya poetik ilhamın nəhəng qüvvəsi ilə məhəbbət ifadə olunmuşdur.

**Baxma uşaq olmayan yaşıma,**

**Əlini çək başıma, ay ana,**

**Gücsüz əllərinə ehtiyacım var.**

**Qayğılı gözlərinə,**

**Sayğılı sözlərinə**

**Ehtiyacım var, ay ana...**

**Susma, qurbanın olum...**

**Danış, ay ana!**

Şairin ananın böyüklüyü və gözəlliyi haqqında müdrik poetik sətirlərini oxuyarkən gənc qəlbdə hansı izlər salacağını duymaq çətin deyildi.

İnsanın mənəvi aləmi haqqında olan lirik şeirlərin dərk edilməsi insanı yüksəldir, nəcibləşdirir.

Yeniyetmələr insan hisslərinin böyüklüyünü, gözəlliyini, onun sevinc və kədərini onun dünyanı və özünü dərk etmək arzusunu lirikada duyurlar, hiss edirlər.

Məhəbbət, düzlük, sədaqət haqqında poetik söz - gənc ürəyi nəcibiəşdirən qüdrətli qüvvədir. İnsan gözəlliyinə məhəbbət hissinin bütün gözəlliyini gənc ürəklərə poetik sözlə olduğu kimi heç bir nəsihət və izahatla çatdıra bilməzsən.

**... Nədir ölçü, nədir çəki dünyada?**

**Sevgi hökm edəydi təki dünyada.**

**Öləcəm qəlbimdə son**

**məhəbbətim,**

**Gör necə xoşbəxtəm iki dünyada...**

**Bir söz deyim müxtəsər,**

**Məhəbbətdir hər əsər.**

**Bir vurmazdı qəlbimiz,**

**Yazılmazdı şeirimiz**

**İkimizdən birimiz**

**Dünyaya gəlməsəydik.**

**Dünyanı eşq yaşadtr,**

**Vurğuniuqdan xoş nə var?!**

**Kim deyər ki sevdalar**

**Gəldi - gedərdi, gülüm?!**

Gənc oğlanların və qızların qəlbində həyəcanlı poetik anlayış yaratmaq üçün söz tapmaq asan deyildir: bu həyəcanlar olmadan ürək poetik hisslərə laqeyd qalır. Hamlet İsaxanlı poeziyası ürəklərdə bu həyəcanı yarada bilir.

Ürəklərdə yaşayan bir ideya var - Vətən ideyası. Vətən ideyasına emosional münasibət yeniyetmənin əxlaqi simasını müəyyən edir. İnsanın həyatında nə isə başlıca şey olmalıdır ki, o bütün gündəlik qayğılardan, həyəcanlardan yüksəkdə dursun. Poeziyada vətənimizin taleyi haqqında söhbət gedirsə, bu təkcə əsərin başa düşülməsi üçün deyil, habelə vətəndaşlıq hisslərinin insanın emosional həyatının yüksək pilləsi kimi dərk edilməsi üçün zəruridir.

**Bu dünyanın çoxmuş**

**bəndi - bərəsi,**

**Xcyirlə şər mənəm deyir hərəsi,**

**Zamandadır, varsa, bunun çarəsi.**

**Silkələnə, titrəyə yer kürəsi,**

**Ərşə qalxa Koroğlunun nərəsi –**

**Dəmirçioğlu, Dəli Hasan oyana**

**Qaniçənlər qızıl qana boyana.**

Hər bir gənc vətəndaşın ürəyində müqəddəs və toxunulmaz olanın bərqərar olması bəşəriyyət tarixinə diqqətli, ciddi baxış tələb edir. Şair düşmənlərimizə nifrət hissi yaradaraq, qəhrəmanlıq tariximizi yada salır. Vətən hissinin adamı necə yüksəltdiyini, qəhrəmancasına igidliyə ruhlandırdığını göstərir. Bu isə gənclərdə vətənpərvərlik ideyasının başa düşülməsinə və dərindən hiss edilməsinə, babalarımızın igidlikləri üçün iftixar hissinin oyadılmasına gətirir.

Poeziyanın gücü yeniyetmənin mənəvi aləminə sözün təsiri, "ürəyi danışıqla yandırmaq" bacarağı başqasının dərdinə şərik olmağın hansı emosional mədəniyyəti tərbiyə etməsindən asılıdır. Emosional həssaslıq başqasının dərdinə şərik olmaq hissi yaradır. Başqasının kədərli taleyinə acımaq duyğuların saflığını, nəcibliyini qoruyur.

Bu cəhətdən "Dənizdə bir quş..." şeiri daşıdığı həyəcana, təlaşa görə mütəəssir edir:

**Güvəndiyi göy sular**

**O quşa qənim oldu.**

**Üzüntülü duyğular,**

**Ağrılar mənim oldu.**

Əxlaqi tərbiyəliliyin əsası insanın öz vicdanının əmri ilə adamlara xeyirxahhq etməyə hazır olmasından ibarətdir.

İnsan yaxşı şeylərə bir növ adət etməlidir. İngilis yazıçısı U. Tekkerey yazmışdır. “Rəftar əksən-adət biçərsən, adət əksən-xasiyyət biçərsən, xasiyyət əksən-tale biçərsən”.

Zöhrə Əliyeva